# "Doktorantura təhsili yalnız bir pillədən ibarət olmalıdır"

*Qərib Mürşüdov:*

## "Ümid edirəm ki, birpilləli doktorantura təhsilinə keçid elmin təşkilində ümumi islahatların bir hissəsidir"



Hazırda elm və təhsilin inteqrasiyası müstəvisində aparılan müzakirələrdə ölkəmizdə doktorantura təhsilində yeniliklərin edilməsi, müvafiq təkmilləşmələrin aparılması məqsədəuyğun hesab olunur.

Böyük Britaniyanın Kembric Universitetinin Molekulyar Biologiya Laboratoriyasının (MBL) qrup rəhbəri professor Qərib Mürşüdov "Azərbaycan müəllimi"nə verdiyi müsahibəsində qeyd edib ki, Azərbaycanda elm sahəsində köklü islahatların həyata keçirilməsinin vaxtı artıq çatıb: "Bu islahatların, şübhəsiz ki, iqtisadiyyatın və təhsilin müxtəlif sahələrində aparılan dəyişikliklərlə eyni vaxtda tətbiq edilməsi son dərəcə vacibdir. Doktorantura təhsili elmi mütəxəssislərin yetişdirilməsində əsas rol oynadığı üçün bu təhsil sisteminin düzgün qurulması Azərbaycanda elmin uzunmüddətli inkişafı üçün ən mühüm amillərdən biridir. Ümid edirəm ki, bu islahatlar həyata keçirilməzdən əvvəl müxtəlif ölkələrin təcrübələri diqqətlə öyrəniləcək və onlar Azərbaycanın şəraitinə uyğun şəkildə tətbiq ediləcək. Eyni zamanda, belə islahatlardan əvvəl geniş müzakirələr aparılması, düzgün addımların atılması üçün zəruri şərait yarada bilər".

– *Qərib müəllim, sizcə, ümumiyyətlə, doktorantura təhsilinə baxışımız necə olmalıdır?*

– Bu məsələyə də ixtiyari bir problem kimi ikitərəfli yanaşmaq vacibdir. Bir tərəfdən, dövlətin strategiyasına uyğun olaraq gələcəkdə dəyişən şəraitdə ölkə iqtisadiyyatını inkişaf etdirə biləcək mütəxəssislərin yetişdirilməsi, digər tərəfdən isə fərdlərin öz potensiallarından optimal şəkildə istifadə edərək yaşayış şəraitlərini yaxşılaşdırması və təhsil sistemini bu məqsədə çatmaq üçün bir vasitə kimi qiymətləndirməsi mühüm məsələdir. Hər iki yanaşma son dərəcə maraqlı və geniş müzakirələr tələb edən mövzulardır. Dövlət baxımından, doktorantura təhsili və digər təhsil pillələri ölkənin mövcud iqtisadiyyatında fəal iştirak edə, gələcəkdə iqtisadi inkişafın istiqamətlərini müəyyənləşdirə və fövqəladə vəziyyətlərdə çağırışlara cavab verə bilən yaradıcı mütəxəssislərin yetişdirilməsi üçün əsas bir vasitə kimi qiymətləndirilə bilər.

Konkret olaraq doktorantura təhsilinə qayıtsaq, Azərbaycanda bu prosesin sadələşdirilməsi zəruridir. Bunun üçün bir neçə addım atmaq mümkündür:

* *Doktorantura təhsil pilləsi universitetin ayrılmaz bir hissəsi olmalıdır. Tədqiqat institutlarında doktorantlar hazırlanırsa, onlar universitetlərlə sıx əlaqədə işləməlidirlər.* Bunun təmin edilməsi üçün universitetlər və tədqiqat institutlarında müəyyən struktur dəyişiklikləri həyata keçirilməlidir.
* *Doktorantura təhsili yalnız bir pillədən ibarət olmalıdır və doktorantura diplomu maaşlara birbaşa təsir göstərməməlidir.* Maaşlar hər bir müəssisənin öz əməkhaqqı strukturuna uyğun təyin edilməlidir. Təbii ki, doktoranturanı uğurla başa vuranların müəyyən təcrübə və bacarıqları olduğu üçün onlar bu maaş strukturunda daha yüksək pillədə yerləşə bilərlər. Bu isə doktorantura diplomunun qeyri-birbaşa şəkildə maaşa təsir etməsi deməkdir.
* *Doktorantura təhsilinin keyfiyyətini artırmaq üçün müasir standartlara uyğun tədqiqat imkanları yaradılmalı, doktorantların elmi fəaliyyətlərini dəstəkləyən mühit təmin edilməlidir.* Bu məqsədlə beynəlxalq təcrübələrdən istifadə edilməli və doktorantların müstəqil tədqiqat aparmaq üçün lazım olan resurslarla təmin olunmasına diqqət yetirilməlidir.
* *Sənədlərin yığılması prosesi sadələşdirilməli və doktor elmi dərəcələrinin verilməsi universitetlərin səlahiyyətinə buraxılmalıdır.* Bunu həyata keçirmək üçün universitetlərə daha çox müstəqillik və sərbəst qərar vermək hüququ verilməlidir. Bu yanaşma, universitetlərdə təhsil islahatlarının ayrılmaz bir hissəsi kimi qəbul edilməlidir. Bu məsələ maraqlı, mürəkkəb və eyni zamanda son dərəcə vacib bir problemdir, lakin onun həlli üçün ayrıca və dərin müzakirələr tələb olunur.

Bu addımlar, doktorantura təhsilinin effektivliyini artırmaqla yanaşı, elmi potensialın daha yaxşı istifadə edilməsinə və ölkənin elmi-texniki inkişafına töhfə verə bilər.

– *Doktorantura təhsilində təkmilləşmələri zəruri edən nədir?*

– Bildiyimiz kimi, hazırkı doktorantura təhsili sistemi 18-19-cu əsrlərdə Qərbi Avropadan, xüsusilə Almaniyadan Rusiyaya, 20-ci əsrin əvvəllərində isə Rusiya vasitəsilə Azərbaycana gətirilib. Həmin dövrdə elmin inkişafı indiki kimi dinamik deyildi, bir və ya iki elmi əsərin yazılması böyük nailiyyət hesab olunurdu. Elmi jurnalların sayı məhdud idi və elmi məlumatların yayılması daha yavaş baş verirdi. Lakin indiki dövrdə elm və texnologiya sürətlə inkişaf edir və bu sahələr bir-biri ilə sıx əlaqədardır. Artıq elmi təcrübənin sübutu üçün ayrı-ayrı elmi əsərlərin yazılmasına ehtiyac azalmışdır. Bunun əvəzinə, nüfuzlu beynəlxalq jurnallarda dərc olunmuş elmi məqalələr və ya patentlər belə bir təcrübənin mövcudluğunu sübut etmək üçün kifayət qədər güclü dəlil sayılır.

Bundan əlavə, elm və təhsil müəssisələrində vəzifələr tutmaq üçün təkcə elmi işlərin olması kifayət deyil. Kiçik və böyük tədqiqatçı qruplarının idarə edilməsi, qrantların əldə edilməsi, maliyyə mənbələrinin tapılması və gəlir gətirən layihələrin həyata keçirilməsi kimi bacarıqlar da tələb olunur. Həmçinin ölkənin strategiyasına uyğun layihələrin hazırlanması və tətbiqi də bu vəzifələrin tutulması üçün vacib şərtlərdən biridir.

Müasir dünyada elm, texnologiya və iqtisadiyyatın dinamik inkişafına uyğunlaşmaq üçün karyera planlamasının gənc yaşdan başlanması zəruridir. Bu yanaşma, gənc tədqiqatçıların daha tez təcrübə qazanmasına və ölkənin elmi-texniki potensialının artırılmasına kömək edə bilər. Beləliklə, *doktorantura təhsilinin müasir tələblərə uyğunlaşdırılması və daha çevik bir sistemə çevrilməsi Azərbaycanın elmi inkişafı üçün mühüm addım ola bilər.*

– *O zaman müasir tələblər baxımından Azərbaycanda doktorantura təhsilinin yenidən təşkili ilə bağlı nə kimi təklifləriniz olardı?*

– Yuxarıda söylədiklərimi qruplaşdıraraq əlavə detallarla bu təklifləri tamamlamaq olar:

1. *Doktoranturanın bir pillədən ibarət olması:* Doktorantura təhsilinin sadələşdirilməsi və daha çevik bir strukturda təşkil edilməsi vacibdir. Bu, tədqiqatçıların daha sürətli və effektiv şəkildə elmi fəaliyyətlərini davam etdirməsinə şərait yaradacaq.
2. *Doktorantura təhsilinin universitetlərin səlahiyyətinə verilməsi:* Doktorantura təhsilinin universitetlərin nəzarətinə verilməsi və onların bu prosesdə daha müstəqil qərarlar qəbul etməsi zəruridir. Bu, universitetlərin elmi potensialını artırmaqla yanaşı, tədqiqatların daha praktik və ölkənin ehtiyaclarına uyğun olmasını təmin edə bilər.
3. *Universitetlərin rolunun gücləndirilməsi və təhsil sistemində islahatlar:* Universitet təhsilinin tədqiqata əsaslanması və tədqiqat fəaliyyətlərinin təhsil prosesinə inteqrasiyası vacibdir. Bu, tələbələrin və doktorantların elmi-tədqiqatlara daha yaxından cəlb edilməsinə və praktiki bacarıqlarının artırılmasına kömək edəcək.
4. *Doktorantura müdafiələrinin sadələşdirilməsi və sənədlərin elektronlaşdırılması:* ASAN, SİMA, ƏMAS kimi xidmətlər göstərir ki, Azərbaycanda elektron xidmətlərin tətbiqi sahəsində kifayət qədər təcrübə mövcuddur. Doktorantura prosesində sənədlərin elektronlaşdırılması və idarəetmənin sadələşdirilməsi vaxta qənaət edəcək və prosesi daha şəffaf edəcək.
5. *Doktorantura təqaüdlərinin artırılması:* Doktorantura təqaüdlərinin yaşayış səviyyəsinə uyğun olması potensialı yüksək olan mütəxəssisləri cəlb etmək üçün vacibdir. Bu, gənc tədqiqatçıların maddi cəhətdən dəstəklənməsi və elmi fəaliyyətlərini daha səmərəli şəkildə davam etdirməsi üçün zəruridir.
6. *Doktorantura və təhsil pillələrinin maliyyələşdirilməsi:* Bu mövzu ayrıca müzakirə tələb edir. Dövlət büdcəsi, beynəlxalq qrantlar, özəl sektorun dəstəyi və digər maliyyə mənbələri vasitəsilə təhsil və tədqiqat fəaliyyətlərinin maliyyələşdirilməsi üçün müxtəlif modellər nəzərdən keçirilə bilər. Bu istiqamətdə geniş müzakirələr aparılması məqsədəuyğun olardı.

Bu təkliflər, Azərbaycanda doktorantura təhsil sisteminin müasir dövrün tələblərinə uyğunlaşdırılması və daha effektiv hala gətirilməsi üçün əsaslı bir çərçivə təqdim edir. Hər bir məqamın dərinləşdirilmiş təhlili və praktiki tətbiqi üçün müvafiq qurumlar və ekspertlər arasında geniş müzakirələr aparılması zəruridir.

– *Xaricdə, əsasən də Britaniyada doktorantura təhsili necə həyata keçirilir?*

– Böyük Britaniyada doktorantura sənədləri universitetlər tərəfindən verilir. Hər universitetin özünəməxsus tələbləri var. Tədqiqat institutlarında doktorantlar (PhD tələbələri) olur, lakin onlar universitetdə qeydiyyatdan keçməlidirlər və onların universitetdən də əlavə bir (formal olsa da) rəhbəri olur. Universitetlərdə və tədqiqat institutlarında doktorantlar üçün müəyyən maliyyə imkanları var. Bu maliyyə ilə bir institutda 5-10 doktorantı dəstəkləmək mümkündür. Əlavə maliyyələşdirmə mənbələri ya qrantlardan, ya da sənaye ilə əməkdaşlıqdan gəlir. Bundan əlavə, tələbələr öz maliyyələri ilə də gələ bilərlər. Lakin bəzi universitetlərdə tələb olunur ki, maliyyə mənbəyi yarışma yolu ilə əldə edilsin. Yəni bakalavr və magistratura təhsillərindən fərqli olaraq, PhD üçün valideynlərin maliyyəsi kifayət etmir. PhD tələbəsi olaraq universitetlər hər qeydiyyatdan keçən tələbə üçün tədris pulu alırlar. Bu, universitetlərin gəlir mənbələrindən biridir. Bundan əlavə, tələbə yaşaması üçün də kifayət qədər maliyyə ilə təmin edilməlidir. Beləliklə, PhD tələbə qrantı həm universitet, həm də tələbə üçün maliyyə dəstəyi təmin edir. Tələbələrin həyatını asanlaşdırmaq üçün onlar gəlir və bəzi vergilərdən azad olunurlar. Bu isə onların təqaüdlərinin az olmasına baxmayaraq, yaşamaq üçün kifayət edir. Doktorantura yalnız bir mərhələdən ibarətdir. Müdafiə hər universitetin qaydalarına uyğun keçirilir. Dissertasiya (PhD tezisi) hazır olduqdan sonra, adətən biri institutdan və biri kənardan olan ekspertlərdən ibarət (iki və ya üç) imtahan komissiyası yaradılır. Bu komissiya PhD tələbəsini 4-5 saat ərzində imtahan edir. Suallar həm dissertasiya mövzusunu, həm də mövzunun aid olduğu daha geniş sahəni əhatə edə bilər. İmtahandan sonra imtahan götürənlər hesabat yazır və tələbənin müdafiə etməsi üçün rəylərini bildirirlər. Bu nəticədə tələbə ya müdafiə edir, ya da etmir. Qeyd etmək istəyirəm ki, bu sistem yalnız Böyük Britaniyada işləyir. Digər ölkələrdə imtahan sistemi tamamilə fərqli ola bilər. Azərbaycan üçün Böyük Britaniya imtahan sistemi məqsədəuyğun olmazdı. Daha geniş bir imtahan sistemi daha məqsədəuyğun ola bilər. Lakin bu mövzu müzakirə olunsa, yaxşı olar.

– *Elm və təhsil naziri Emin Əmrullayev son açıqlamalarında qeyd edir ki, qanunvericilikdə müvafiq dəyişiklik olsa, doktorantura təhsili ikipilləli sistemdən birpilləli sistemə keçirilə bilər. Bu, baş verərsə, nə kimi müsbət dəyişiklikləri görə biləcəyik?*

– Bəli, cənab nazirin fikirləri ilə razıyam. Birpilləli doktorantura mütəxəssislərin daha gənc yaşlarında karyeralarına başlamasını təmin edərək, elmi sahədə dinamizm yaratmaq üçün mühüm addım ola bilər. Bu, sovet dövründən qalmış sistemlərin modernləşdirilməsi və gənc tədqiqatçıların yenilikçi ideyalarla elmin inkişafına töhfə verməsi üçün vacib bir vasitə ola bilər. Ümid edirəm ki, birpilləli doktorantura təhsilinə keçid elmin təşkilində ümumi islahatların bir hissəsidir. Bu islahatların necə həyata keçiriləcəyi barədə düşünmək və müzakirələr aparmaq vacibdir.

**Oruc MUSTAFAYEV**

◆ Doktorantura təhsil pilləsi universitetin ayrılmaz bir hissəsi olmalıdır. Tədqiqat institutlarında doktorantlar hazırlanırsa, onlar universitetlərlə sıx əlaqədə işləməlidirlər.

◆ Doktorantura təhsilinin keyfiyyətini artırmaq üçün müasir standartlara uyğun tədqiqat imkanları yaradılmalı, doktorantların elmi fəaliyyətlərini dəstəkləyən mühit təmin edilməlidir.

◆ Sənədlərin yığılması prosesi sadələşdirilməli və doktor elmi dərəcələrinin verilməsi universitetlərin səlahiyyətinə buraxılmalıdır.

◆ Doktorantura təhsilinin müasir tələblərə uyğunlaşdırılması və daha çevik bir sistemə çevrilməsi Azərbaycanın elmi inkişafı üçün mühüm addım ola bilər.